**“Sosial müavinətlərin, təqaüdlərin və kompensasiyaların təyin olunması üçün təqdim edilən sənədlərin və məlumatların rəsmiləşdirilməsi, baxılması və saxlanılması Qaydaları”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 21 sentyabr tarixli 311 nömrəli Qərarında dəyişiklik edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 21 sentyabr tarixli 311 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, 10, maddə 1225; 2016, 7, maddə 1343, 11, maddə 1977; 2017, 12 (II kitab), maddə 2552; 2018, 2, maddə 354, 12 (II kitab), maddə 2730; 2019, 5, maddə 983, 7, maddələr 1318, 1330; 2020, 5, maddə 633, 10, maddə 1269, 11, maddə 1411) ilə təsdiq edilmiş “Sosial müavinətlərin, təqaüdlərin və kompensasiyaların təyin olunması üçün təqdim edilən sənədlərin və məlumatların rəsmiləşdirilməsi, baxılması və saxlanılması Qaydaları”nda aşağıdakı dəyişikliklər edilsin:

1. 1.1-ci bəndə “sosial müavinətlərin” sözlərindən əvvəl “, habelə övladlığa götürülən uşağa, o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşınadək uşağa görə” sözləri əlavə edilsin.

2. Aşağıdakı məzmunda 3.1-1-ci bənd əlavə edilsin:

“3.1-1. Azərbaycan Respublikasının Ailə Məcəlləsinin 118.20-ci maddəsinə müvafiq olaraq məhkəmənin uşağın övladlığa götürülməsi barədə qətnamədən çıxarışı Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə təqdim edildiyi gündən ən geci 5 (beş) iş günü müddətində övladlığa götürülən uşağa, o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşınadək uşağa görə müavinət təyin edilir. Təyin edilmiş müavinət bu Qaydaların 5.4-cü bəndinə uyğun olaraq ödənilir.”.

3. 7.13.1-ci yarımbəndə “sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlara,” sözlərindən sonra “habelə övladlığa götürülmüş sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlara görə,” sözləri əlavə edilsin.

4. Bu Qərar 2021-ci il yanvarın 1-dən tətbiq edilir.

**Əli ƏSƏDOV**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, 16 mart 2021-ci il
68